# Avropanın 400-dən çox şirkəti Bakıda bir araya gələcək

Bu gün sivilizasiyalar arasında təbii coğrafi və mədəni körpü rolunu oynayan, nəhəng enerji, nəqliyyat-kommunikasiya layihələrinin müəllifi və ən böyük maliyyə dəstəkçisi olan, regionda investisiyalar üçün ən cəlbedici məkan kimi tanınan Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında siyasi, iqtisadi, eləcə də enerji, ticarət, investisiyalar və digər sahələr üzrə əlaqələr daha da inkişaf edir. Prezident İlham Əliyevin 2017-ci ilin fevral ayında Brüsselə səfəri bütün sahələr üzrə ikitərəfli əməkdaşlıqda keyfiyyətcə yeni mərhələ oldu. Kənd təsərrüfatı və qida, nəqliyyat və logistika, İKT və elektron ticarət, iqtisadi islahatlar, ətraf mühitin mühafizəsi üzrə əməkdaşlığı daha da irəliyə aparmaq üçün müxtəlif mexanizmlərdən istifadə olunur.



Prezident İlham Əliyev aprelin 18-də andiçmə mərasimində bildirib ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox müsbət imicə malik olan ölkədir: “Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atdı. Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir.”

Təbii ki, son illərdə ölkəmizdə qeyri-neft sektorunun ümumi daxili məhsulda çəkisinin artması, Azərbaycanın ixrac və investisiya imkanlarının təşviqi, yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi və ölkəmizin investisiya imkanlarının təbliği, sahibkarlığa dəstəyin gücləndirilməsi, əlverişli biznes və investisiya mühitinin mövcudluğu, iqtisadi fəallığın artması yerli və xarici kapitallı müxtəlif müəssisələrin yaradılmasında, azad iqtisadi zonaların yaradılması ölkəmizə investisiya qoyuluşunun çoxalmasında mühüm rol oynayıb.

Xarici investisiyaların ölkəmizin qeyri-neft sektoruna cəlb edilməsi istiqamətində atılan addımlar, təşkil olunan beynəlxalq tədbirlər, yerli məhsulların nümayiş etdirildiyi sərgilər iqtisadi, ticarət əlaqələrinin genişləndirilməsi, iş adamları arasında ünsiyyətin qurulması və əməkdaşlığın gücləndirilməsi, yeni tərəfdaşların tapılması, brendlərin tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir.

Bir müddət əvvəl Bakıda 3-cü Azərbaycan-Avropa İttifaqı (Aİ) biznes forumunun keçirilməsi bunun əyani sübutudur. Azərbaycandan 300, Avropa İttifaqına daxil olan ölkələrdən isə 100-dən çox iş adamının beynəlxalq təşkilatların, səfirliklərin, ticarət palatalarının nümayəndələrinin iştirakı ilə keçirilən forumun ölkəmizdə bütün sahələrdə uğurla davam etdirilən islahatlar, əlverişli biznes mühiti, respublikamızın investisiya imkanlarının potensial xarici sərmayədarlara çatdırılması, investisiyaların cəlb edilməsi üzrə ən qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi sahəsində fikir mübadiləsinin, müzakirələrin aparılması Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsinə böyük töhfələr verməkdədir.

2018-ci il iyunun 5-də Bakıda növbəti Azərbaycan-Avropa İttifaqı biznes forumunun keçirilməsinin planlaşdırılması bu istiqamətdə atılan növbəti uğurlu addım kimi dəyərləndirilməlidir. Forumda Avropanın 400-dən çox şirkətinin nümayəndəsinin təmsil olunacağı gözlənilir. Bu barədə açıqlama verən Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasın sözlərinə görə, Azərbaycanda ciddi islahatlar icra olunur: “Azərbaycan ciddi iqtisadi islahatların icra olunması prosesindədir. Bu, ölkəyə rəqabətqabiliyyətliliyi artırmaq və iqtisadi sabitliyi gücləndirməyə imkan verəcək. Aİ həm bunda, həm də əməkdaşlığın möhkəmlənməsində maraqlıdır. Hazırda Azərbaycan və Aİ yeni tərəfdaşlıq sazişi üzərində işləyirlər. Bundan başqa, iyunun əvvəlində Bakıda böyük biznes forumunun keçirilməsi planlaşdırılır”.

Azərbaycanın əsas xarici ticarət tərəfdaşı olan Aİ-nin 2016-cı ildə ölkəmizin xarici ticarətindəki payı 35 faiz, 2017-ci ilin 4 ayında isə 38 faiz təşkil edib. 10-dan çox üzv ölkə ilə Hökumətlərarası Komissiya fəaliyyət göstərir. Aİ-nin bir sıra ölkələri ilə Azərbaycan arasında ticarət palataları mövcuddur. Son 5 ildə bu nəhəng quruma üzv ölkələrlə 123 biznes forumu və digər tədbirlər keçirilib.

**Zahid Rza,**
***“İki sahil”***